*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 14 oktyabr 2017-ci il | № 77 (2194) | Qiymətı 25 qəpik


Ali Baş Komandan İlham ƏLİYEV:

## Biz ordu quruculuğu istiqamətində böyük addımlar atmışıq



Ötən il oktyabrın 17-də Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsinin 25-ci ildönümünə həsr olunmuş mərasimdə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev çıxışı zamanı son 25 illik zaman ərzində ölkəmizin qazandığı uğurlara, həmçinin ordu quruculuğunda qazanılan nailiyyətlərə diqqət yetirmişdi. Ölkə başçısı qeyd etmişdi ki, biz ordu quruculuğu istiqamətində böyük addımlar atmışıq. "Bu gün beynəlxalq ekspertlər də qeyd edirlər ki, Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Biz bunu bilirdik, ancaq bu gün bütün dünya bilir. Bu ilin aprelində təmas xəttində baş vermiş hadisələr Azərbaycan Ordusunun gücünü bir daha göstərdi. Bizim ordumuz əks-hücum əməliyyatı keçirərək Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini işğalçılardan azad etdi. Orada indi Azərbaycan bayrağı dalğalanır. Bu, bizim gücümüzü göstərir. Biz gücümüzü bilirik, gücümüzə əminik və düşmənin istənilən hədəfini məhv edə bilərik..."

Yaşadığımız müstəqillik dönəminə nəzər yetirəndə çox da böyük olmayan bir zamanda - 26 illik bir dövrdə müstəqilliyimizin qorunub möhkəmləndirilməsi üçün bütün sahələrdə xeyli işlər görüldüyünə əmin oluruq. Artıq nəinki beynəlxalq ekspertlər, hətta işğalçı dövlətin analitikləri də obyektiv mövqedən çıxış edərək Azərbaycanın ötən dövrdə ordu quruculuğunda da mühüm uğurlara imza atdığını etiraf edirlər. Əgər 2016-cı ilin aprel döyüşləri düşmən ordusunun məğlubedilməzliyi haqqında ermənilərin illərdən bəri yaratdığı mifi darmadağın etdisə, Azərbaycanın da yetərincə hərbi gücə malik olduğunu təsdiqlədi.

(Ardı 2-ci səhifədə)



"Barmağımız tətikdə, ürəyimiz Qarabağdadı..."

3-cü səhifədə



"Mən bir daha şahidi oldum ki, Azərbaycan Ordusu istənilən döyüş tapşırığını, hücum əməliyyatını yerinə yetirməyə qadirdir"

5-ci səhifədə



Raket və artilleriya birləşmələri döyüş atışlı təlimlər keçirib

6-cı səhifədə



"Vətən hər nəğməmizin nəqaratıdı"

8-ci səhifədə

Ali Baş Komandan İlham ƏLİYEV:

# Biz ordu quruculuğu istiqamətində böyük addımlar atmışıq

(Əvvəli 1-ci səhifədə)

Azərbaycanda peşəkar, yüksək döyüş və mənəvi-psixoloji hazırlığa malik bir ordunun formalaşmasında ümummilli liderimiz Heydər Əliyevin misilsiz xidmətləri danılmazdır. Təkcə 1993-cü ildə dahi rəhbərin siyasi hakimiyyətə qayıdışı ilə yox,



həm də keçmiş Sovetlər dövründə onun Azərbaycana rəhbərliyi ilə indiki ordu quruculuğu strategiyasının bünövrəsi qoyulub. Sözümün bu yerində uzun müddət Naxçıvanda indiki Heydər Əliyev adına Hərbi Liseyin rəisi kimi bu təhsil müəssisəsinin fəaliyyətində böyük zəhməti olan general-mayor Rasim Əliyevdən aldığım müsahibədən bir məqamı xatırlatmaq istərdim. Hazırda Müdafiə Nazirliyi sistemində idarə rəisi vəzifəsində xidmətini davam etdirən general ulu öndər Heydər Əliyevin ölkəmizdə ordunun yaradılmasında xidmətlərindən danışarkən hələ 1971-ci ildə, yəni, keçmiş ittifaq dövründə C.Naxçıvanski adına Hərbi Liseyin yaradılmasını onun peyğəmbərcəsinə uzaqgörənliyi hesab etmişdi. Əslində, həqiqət belədir, hansı bir sahədə olursa-olsun, uğurların qazanılmasında peşəkar kadrlar böyük rol oynayır. Sanki görkəmli dövlət xadimi imza atdığı islahatlarda bir məqsədi - Azərbaycanın nə vaxtsa yenidən müstəqilliyə qovuşacağını düşünüb. Məhz onun siyasi qətiyyəti hesabına yaradılan ibtidai hərbi məktəbi müasir Silahlı Qüvvələrimizin mühüm kadr bazası hesab etmək mümkündür. Çünki bu gün ordu quruculuğunda xidmətləri olan təcrübəli hərbi qulluqçularımızın böyük əksəriyyəti məhz bu məktəbin yetirmələridir. Müdafiə naziri general-polkovnik Zakir Həsənov kursantlarla görüşlərinin birində iftixarla qeyd edib ki, Heydər Əliyev kimi məşhur bir dövlət xadiminin yaratdığı məktəbin yetirməsi olduğuna görə daim qürur keçirir.

Ömür yolu və zəngin siyasi fəaliyyəti hər birimizə ən dəyərli örnək olan Ulu Öndərin siyasi kursu hazırda Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident çıxışlarının birində ordu quruculuğunun onun siyasi kursunda prioritet olduğunu vurğulayaraq deyib: "Orduya diqqət Azərbaycan dövlətinin prioritetidir. Mən çox şadam ki, cəmiyyət də bu təşəbbüsləri alqışlayır. Bizim ordumuz bizim qürurumuzdur. Bizim ordumuz müstəqilliyimizi şərtləndirən amildir. Biz bundan sonra da orduya, ordu quruculuğuna, hərbçilərə olan diqqəti artıracağıq, bu diqqəti göstərəcəyik". Əslində, son illər Silahlı Qüvvələrimizin maddi-texniki təminatının daha da yaxşılaşdırılması, hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində həyata keçirilən kompleks tədbirlər də ordumuzun dövlətin hərtərəfli qayğısı ilə əhatə olunduğunu deməyə əsas verir. Hazırda hərbi hissələrimizdə müasir sosial şərait yaradılıb ki, bu da cəmiyyətimizdə böyük rəğbətlə qarşılanır və xalq-ordu birliyini daha da möhkəmləndirir. Dəfələrlə Müdafiə nazirimiz qeyd edib ki, orduda qazanılan uğurların özəyində dövlətin və xalqın hərtərəfli qayğısı dayanır.

İnternet resurslarının birində aparılan sorğuya görə, Müdafiə Nazirliyi işgüzarlığına görə digər dövlət qurumları arasında ən yüksək reytinqi qazanmışdı. Bu faktla rastlaşanda qeyri-ixtiyari qürur yaşadım, çünki uzun müddətdir ki, ordu mənsubları arasındayam. Doğrudan da, hərbi hissələrimizdə son bir neçə ildə Ali Baş Komandanın rəhbərliyi ilə həyata keçirilən irimiqyaslı islahatlar, görülən tədbirlər öz bəhrəsini verib. Bu gün Azərbaycan Ordusunun adı güclü ordular sırasında çəkilir. Buna zəmin yaradan başlıca səbəblərdən biri də ölkəmizin iqtisadi qüdrətinin artmasıdır. İqtisadiyyatı güclü olan dövlətin ordusu da güclüdür.



Son illər Müdafiə Nazirliyində çox dəyərli bir ənənə formalaşıb. Nazirliyin rəhbərliyi mütəmadi olaraq bayram günlərini ön xətdə döyüş növbətçiliyi aparan şəxsi heyətlə birgə keçirir. Nazir əsgərlə bir süfrədə əyləşir, əsgərlə duz-çörək kəsir. Bu, adi bir hadisə deyil, şəxsi heyətin ruh yüksəkliyində belə tədbirlərin əhəmiyyəti böyükdür. Döyüş növbətçiliyində dayanan əsgərlərlə nazirin səmimi söhbəti, şübhəsiz, şəxsi heyətə güclü inam və etibar hissi aşılayır.

Düşmənlə təmas xəttində xidmət edən bir qrup əsgərlə söhbətləşəndə bir çavuş qolundakı saatı göstərib iftixarla qeyd etdi ki, bu hədiyyə Müdafiə naziri tərəfindən ona verilib. İnanın ki, həmin anda çavuşun yaşadığı fərəhi sözlə ifadə etməkdə çətinlik çəkirəm. Onun sevincdən gözləri yaşarmışdı, deyirdi ki, istənilən an düşmən üzərində qələbə qazanmağa hazırdır.



Yeri gəlmişkən, ordu quruculuğunda genişmiqyaslı təlimlərin də əhəmiyyətini qeyd etmək istərdim. Ali Baş Komandanın tapşırığı və Müdafiə Nazirliyi rəhbərliyinin təşkilatçılığı ilə müntəzəm keçirilən belə tədbirlər də şəxsi heyətin döyüş ruhunun yüksəlməsində mühüm əhəmiyyət kəsb edir. Təlimlər döyüş şəraitinə uyğun keçirildiyi üçün əsgər və zabitlər özlərini müharibə meydanında olduğu kimi hiss edirlər. Bu təlimlər, həmçinin bütün qoşun növlərinin peşəkarlıq səviyyəsinin artırılmasına zəmin yaradır. Müdafiə naziri şəxsən belə təlimlərdə iştirak edir, vacib tapşırıq və tövsiyələrini verir, fərqlənənləri yerindəcə mükafatlandırır.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov ordunun komandir və zabit heyəti ilə keçirilən müşavirələrdə daim bir məsələni qabardır ki, ön xətdə xidmət edən səxsi heyətin qayğılarına ciddi fikir verilməlidir. Nazirə görə, döyüş növbətçiliyi keçirən əsgər cəmiyyətdə böyük hörmətə və diqqətə layiqdir, çünki ona Vətənimizin qorunması kimi ən müqəddəs vəzifə etibar olunub.

Ordu quruculuğunda son illər həyata keçirilmiş hər bir islahat ölkəmizin hərbi qüdrətinin güclənməsinə dəyərli töhfədir. Vacib döyüş ixtisaslarında peşəkar hərbi qulluqçulara üstünlük verilməsi, təcrübəli gənclərin yenidən hərbi qulluğa cəlb edilməsi nəticə etibarilə ordunun döyüş qabiliyyətinin güclənməsinə təkan verir. 2016-cı ilin aprelində bu vacib islahatların nə qədər gərəkli olduğunu dərindən başa düşdük. Peşəkar hərbçilərimiz onlara həvalə edilən müasir silah və texnikaların köməyi ilə düşmən üzərində hərbi üstünlüyü təmin edərək xalqımıza qələbənin sevincini yaşatdılar.

Azərbaycan Ordusunda şəxsi heyətin döyüş ruhunun yüksəldilməsində Müdafiə Nazirliyinin təşkilatçılığı ilə bölgələrimzdə təşkil edilən vətənpərvərlik tədbirlərinin də rolunu qeyd etmək yerinə düşərdi. Belə tədbirlərdə hərbi qulluqçuların, əsgərlərin iştirakı onlara ruh yüksəkliyi, Vətənimizə, xalqımıza sədaqət hissləri aşılayır. Bu il aprel zəfərinin ildönümü münasibətilə ölkəmizin müxtəlif bölgələrində, həmçinin hərbi hissələrimizdə izdihamlı tədbirlər keçirildi, aprel qəhrəmanlığının gənc nəslə təbliğ edilməsi məqsədi ilə şəhid ailələri və müharibə veteranlarıyla görüşlər təşkil edildi. Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən keçirilən belə tədbirlərə ictimaiyyətin nümayəndələri, qazilər, ziyalılar, tələbə və məktəblilər də böyük həvəslə qatılırlar. Döyüş təcrübəsi olan insanlar səngərlərə yola düşərək torpaqlarımızın müdafiəsində dayanan gənclərlə öz tövsiyələrini, arzularını, xatirələrini bölüşürlər. Belə görüşlər əsgərlər tərəfindən maraqla qarşılanır və onların həyatında unudulmaz hadisəyə çevrilir.

Ötən ilin aprel savaşı Azərbaycanda xalq-ordu birliyinin də sarsılmaz olduğunu təsdiqlədi. Bu cəhətdən cəmiyyətimizə dəyərli örnək olan hadisələrdən Prezidentin xanımı ilə artilleriya hücumlarına məruz qalan cəbhə bölgəsinə səfərini xatırlatmaq çox düzgün olardı. Dövlət başçısı ev-eşikləri düşmən tərəfindən dağıdılmış adamlarla səmimi ünsiyyət yaratdı, onlara çətin və təhlükəli mövqelərdə yaşadıqlarına görə minnətdarlığını bildirdi. Qeyd etmək lazımdır ki, Prezidentin həmin görüşlərin birində dediyi "Xalq öz ordusuna, əsgərinə güvənir" fikri, əslində, orduya verilən böyük qiymət olaraq hərbçilərimizə xoş ovqat, yeni ruh aşıladı.

Bu gün səngərdə döyüş növbətçiliyi keçirən Azərbaycan əsgəri dövlətin, xalqın və ordu rəhbərliyinin etimadını layiqincə doğrultmağa tam hazırdır.

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**fotolar**
**"Azərbaycan Ordusu"nun**
**arxivindən**

# Tacikistan Prezidenti MDB iştirakçı-dövlətlərinin Müdafiə nazirləri ilə görüşüb

*Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Müstəqil Dövlətlər Birliyi iştirakçı-dövlətlərinin Müdafiə nazirlərinin Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə oktyabrın 12-də Düşənbə şəhərində keçirilən görüşündə iştirak edib.*



Oktyabrın 12-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Müstəqil Dövlətlər Birliyinin Müdafiə nazirləri Şurasının Düşənbə şəhərində keçirilən növbəti iclasında iştirak edib.

Müdafiə nazirlərinin görüşündə hərbi əməkdaşlıq məsələləri və gələcək perspektivlər müzakirə olunub.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

## "ABŞ terrorizmlə mübarizədə Azərbaycanı vacib tərəfdaş hesab edir"

Amerika Birləşmiş Ştatları-Azərbaycan əlaqələrinin möhkəmləndirilməsi yollarını müzakirə etmək üçün Azərbaycanda səfərdəyəm. ABŞ terrorizmlə mübarizədə Azərbaycanı vacib tərəfdaş hesab edir.

AZƏRTAC xəbər verir ki, bu sözləri ABŞ müdafiə nazirinin köməkçisinin müavini vəzifəsini icra edən xanım Laura Kuper jurnalistlərə müsahibəsində deyib.

"Azərbaycanın Əfqanıstanda sülhməramlı əməliyyatlarda iştirakını yüksək qiymətləndiririk. Azərbaycan əsgərləri Əfqanıstanda sabitliyin və təhlükəsizliyin təminatına töhfə verirlər", - deyə xanım Kuper əlavə edib.

# Azərbaycan Müdafiə nazirinin müavini ABŞ Müdafiə nazirinin nümayəndəsi ilə görüşüb

Oktyabrın 12-də Müdafiə nazirinin şəxsi heyət üzrə müavini general-leytenant Kərim Vəliyev ölkəmizdə işçi səfərdə olan ABŞ Müdafiə nazirinin köməkçisinin müavini vəzifəsini icra edən xanım Laura Kuperlə görüşüb.



Görüş zamanı qonağa regiondakı təhlükəsizlik vəziyyəti haqqında məlumat verilib, Azərbaycan sülhməramlı kontingentinin NATO-nun Əfqanıstanda keçirdiyi "Qətiyyətli Dəstək" missiyasına verdiyi töhfə, missiyanın gedişatı və Azərbaycan-ABŞ hərbi əməkdaşlığının perspektivləri barədə fikir mübadiləsi aparılıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# "Ölkələrin ərazi bütövlüyü məsələsində ikili standartlar çox ağır nəticələrə gətirib çıxara bilər"

*Kataloniyada keçirilən müstəqillik haqqında referendumun nəticəsində yaranmış böhranın İspaniyanın ərazi bütövlüyü, konstitusiyası, beynəlxalq hüquq çərçivəsində həllini dəstəkləyirik.*

Bu fikri AŞPA-da İspaniyanın Kataloniya bölgəsində keçirilən referendumla bağlı müzakirələrdə Azərbaycan Milli Məclisinin deputatı Qənirə Paşayeva səsləndirib.

Milli Məclisin deputatı Avropa ölkələrinə çağırış edib, ölkələrin ərazi bütövlüyünün müdafiə edilməsinin ən mühüm məsələ olduğunu bildirərək deyib: "AŞPA-ya üzv dövlətlərin ərazi bütövlüyünü prinsipial və qeyd-şərtsiz dəstəklədiyimizi və ortaya çıxan belə məsələlərin yalnız ölkələrin ərazi bütövlüyü çərçivəsində həll ediləcəyini açıq şəkildə ifadə etməliyik. Separatçı hərəkatların güclənməsi Avropanın və dünyanın gələcəyi üçün çox ciddi təhdiddir. Təəssüf ki, assambleyanın ilk günü Ermənistan heyətinin bəzi üzvləri çıxışlarında Kataloniyada baş verənlərdən öz məqsədləri üçün istifadə etməyə, bu hadisələri örnək göstərərək Ermənistanın Qarabağdakı işğalçılıq siyasətinə haqq qazandırmağa çalışdılar. Bu, çox təhlükəli və narahatlıq doğuran bir haldır. Biz burada bu cür cəhdlərə, belə təhlükəli addımlara imkan verməməliyik.

Qarabağ probleminin Kataloniyada yaşananlarla heç bir bənzərliyi yoxdur. AŞPA-nın qəbul etdiyi 1416 saylı qərarda Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal edildiyi açıq şəkildə vurğulanıb".

Q.Paşayeva bildirib ki, Ermənistan Azərbaycanın Dağlıq Qarabağ bölgəsindəki erməni separatçılarını qızışdırıb, onları silahlandırıb. Ermənistan silahlı qüvvələri Azərbaycan ərazisinin 20 faizini işğal edib. Ölkələrin ərazi bütövlüyü məsələsində ikili standartlara yol verilməməlidir. Separatçı fəaliyyətlərin çox ağır nəticələrə gətirib çıxardığını unutmamalıyıq.

Kataloniyada keçirilən referenduma qarşı çıxan insanların yürüşündən söz açan Milli Məclisin deputatı bildirib ki, bu məsələ İspaniyanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.

Q.Paşayeva deyib: "İspaniyadakı vəziyyətlə bağlı AŞPA-nın daha fəal rol oynaması məsələnin ədalətli şəkildə həllinə öz töhfəsini verə bilər. Kataloniyada keçirilən referendum səbəbindən İspaniyada gərginlik və qarşıdurma riskinin artması böyük faciəyə gətirib çıxara bilər. Bu gərginliyi azaltmaq və mümkün faciələrin qarşını almaq üçün buradan ciddi mesajların verilməsi və məsələnin həlli istiqamətində qəti addımların atılmasına ehtiyac var. Dövlətlərin ərazi bütövlüyünə hörmətlə yanaşılmalıdır. Əks təqdirdə, yaxın gələcəkdə Avropa və dünya üçün çox ciddi problemlərin şahidi olacağıq".

**AZƏRTAC**

# "Barmağımız tətikdə, ürəyimiz Qarabağdadı..."

*Ön xətdə yerləşən "N" hərbi hissəsində də döyüşçülərin hər birində yüksək əhval-ruhiyyə hiss edirəm. Zəhmli görünüşü, iti baxışı ilə seçilən kiçik çavuş İlkin Hacıxanovla yaxından tanış oluruq.*



Bakıda dünyaya göz açıb. O da bütün yaşıdları kimi əsgərlik yaşı çatanda böyük həvəslə orduya yollanıb, müddətli həqiqi hərbi xidmətini layiqincə yerinə yetirib. Ön xətdə xidmət keçdiyi "N" hərbi hissəsinin... maşınının manqa komandiri vəzifəsində xidmət edib. Hazırda snayper vəzifəsində xidmət edən kiçik çavuş yenidən ordu sıralarına qayıtmasını belə xatırlayır:

- Orta məktəbi bitirdikdən sonra həqiqi hərbi xidmətə yollandım. Əsgərliyim dövründə nizamlı addımlamağı, silah və texnikanın sirlərini öyrəndim. Komandirlərimdən Vətən üçün ölməyi yox, mübariz döyüşçü olmağı, düşməni məhv etməyi öyrəndim. Təlim çalışmalarını dəqiq və sərrast yerinə yetirdiyim üçün komandirlərim tərəfindən daim yüksək qiymətləndirilirdim. Tərxis olunub doğmalarımın yanına qayıtdığım üçün çox sevinirdim. Komandirim məni yola salanda "İlkin, sən bu orduya lazımsan. Qayıt və Vətənə xidmət et!" dedi. İnamla deyilən bu sözlər həyat yoluma çıraq oldu. Vaxt itirmədən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Vətənin keşiyinə yollandım. Snayper hazırlığı kursunu bitirən gündən ön xətdə xidmət edərək Ali Baş Komandanın döyüş əmrini gözləyirəm.

Müharibə meydanında sərrast atəşlə düşməni məhv etmək snayperə məşhurluq, adsan qazandırıb.

Aprel döyüşlərinin iştirakçısı olan kiçik çavuş İlkin Hacıxanov da Qarabağ uğrunda savaşda düşmən generallarını məhv etməyi qarşısına məqsəd qoyub və bir gün adının məşhur snayperlərlə yanaşı anılacağına inanır. Qarabağ tarixi Azərbaycan torpağıdı, bizim torpaqlara ayaq basan istər əsgər olsun, istər general düşmənimizdi. Hər an barmağımız tətikdə, ürəyimiz Qarabağdadı...

**Baş leytenant Ceyhun CƏFƏRLİ, "Azərbaycan Ordusu", foto C.CƏFƏROVUNDUR**

# Hərbi intizamın möhkəmləndirilməsi ordunun döyüş qabiliyyətinə təsir edən əsas amillərdəndir

## Şəxsi heyətlə iş üzrə komandir müavinlərinin, hüquq işləri üzrə köməkçilərin və psixoloqların iştirakı ilə seminar keçirilib

*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi Silahlı Qüvvələrin döyüş hazırlığı planına əsasən, Təlim və Tədris Mərkəzində birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələri komandirlərinin şəxsi heyətlə iş üzrə müavinlərinin, hüquq işləri üzrə köməkçilərin və psixoloqların iştirakı ilə seminar keçirilib.*





Tədbirdə "Yüksək hərbi intizamın əldə olunmasında qarşıya çıxan problemlərin həlli yolları" mövzusunda çıxış edən Müdafiə nazirinin şəxsi heyət üzrə müavini general-leytenant Kərim Vəliyevin sözlərinə görə, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin Nazirlər Kabinetinin son iclasında ordu quruculuğu məsələlərinə toxunaraq torpaqlarımızın sülh yolu ilə düşməndən azad edilmədiyi təqdirdə ordumuzun mühüm döyüş tapşırığını yerinə yetirməyə hazır olduğunu bildirib. General qeyd edib ki, ordumuz 2016-cı ilin aprel döyüşlərində olduğu kimi, yenə də düşmən üzərində qələbəmizi təmin etməyə qadirdir.

General-leytenant K.Vəliyev əmin olduğunu bildirib ki, seminara cəlb olunan zabit heyəti bundan sonra da öz vəzifə borclarını məsuliyyət hissi ilə yerinə yetirəcək, Ali Baş Komandanın və Müdafiə nazirinin şəxsi heyət qarşısında qoyduğu vəzifə və tapşırıqların öhdəsindən layiqincə gəlmək üçün var qüvvələrini əsirgəməyəcəkdir.

Müdafiə Nazirliyinin idarə rəisi general-mayor Rasim Əliyev Silahlı Qüvvələrdə nizam-intizamın yüksəldilməsi məqsədilə görülən işlər və perspektivlər barədə danışaraq hərbi bölmələrdə intizamın möhkəmləndirilməsi sahəsində həyata keçirilən islahatlar və bu sahədə şəxsi heyətlə iş üzrə zabit heyətinin üzərinə düşən vəzifələri xüsusi qeyd edib. "Dövlətimizin və xalqımızın hərtərəfli qayğısı ilə əhatə olunan Azərbaycan Ordusu ötən bir neçə ildə döyüş və mənəvi-psixoloji hazırlıq cəhətdən yetərli nailiyyətlər qazanıb. Hərbi qulluqçuların sosial şəraiti əvvəlki dövrlərlə müqayisədə xeyli yaxşılaşıb, artıq bütün bölgələrdə yeni hərbi şəhərciklər inşa edilib və müasir hərbi hissələr istifadəyə verilib. Görülən bütün bu işlər isə hərbi qulluqçulara ruh yüksəkliyi aşılayaraq döyüş tapşırıqlarının yerinə yetirilməsində onların məsuliyyətini qat-qat artırıb", - deyə idarə rəisi intizamın möhkəmlənməsində də ruh yüksəkliyinin, əsgər və zabitlərin özünə inam hissinin böyük əhəmiyyət kəsb etdiyini bildirib.

İdarə rəisinin sözlərinə görə, hərbi intizam ordunun döyüş qabiliyyətinə təsir edən əsas amillərdəndir, şəxsi heyətin şüurlu intizama cəlb edilməsi hərbi qulluqçuların Vətənə, dövlətə və xalqa sədaqətlə xidmət etmələrindən asılıdır. Yalnız bu hisslərə malik olan şəxsin döyüş vəzifəsinə məsuliyyətli münasibəti formalaşır, yəni, Vətənin müdafiəsində dayanan hər kəs hansı bir müqəddəs vəzifənin ona həvalə edilməsinin fərqində olmalıdır.



Seminarda Azərbaycan Respublikası Hərbi prokurorunun müavini, ədliyyə general-mayoru Rasim Kazımov da çıxış edərək vurğulayıb ki, hazırda orduda hərbi cinayətlərin azalması, fərarilik kimi daha təhlükəli cinayət hadisələrinə heç bir yerdə rast gəlinməməsi ümummilli lider Heydər Əliyevin müəllifi olduğu ordu quruculuğu strategiyasının müasir dövrdə də uğurlu davamının və şəxsi heyətin döyüş qabiliyyətinin, vətənpərvərlik ruhunun artırılması məqsədilə həyata keçirilən məqsədyönlü tədbirlərin real nəticəsidir.

Bakı Hərbi Məhkəməsinin hakimi Siyavuş Hacıyev, Müdafiə Nazirliyi Hüquq İdarəsinin rəisi, ədliyyə polkovniki Rauf Kişiyev və müxtəlif hərbi hissələrin zabitləri çıxış edərək hərbi intizamın möhkəmləndirilməsinin ordunun döyüş qabiliyyətinə təsir edən başlıca amillərdən olduğunu qeyd edib, həmçinin mövzu ətrafında fikir və mülahizələrini bölüşüblər.

Sonda seminar iştirakçılarını maraqlandıran bu və ya digər suallara aydınlıq gətirilib.

**"Azərbaycan Ordusu"**

# Azərbaycan sülhməramlılarının bir qrupu Əfqanıstana yola salınıb

*NATO-nun Əfqanıstanda həyata keçirdiyi "Qətiyyətli dəstək" qeyri-döyüş missiyasının tərkibində fəaliyyət göstərmək üçün Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 50 hərbi qulluqçusu plana uyğun olaraq rotasiya qaydasında Əfqanıstana yola salınıb.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Əfqanıstandakı sülhməramlı missiyası 2002-ci il noyabrın 20-dən başlayıb.

Hazırda Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 hərbi qulluqçusu, 2 hərbi həkimi və mühəndis-istehkam ixtisası üzrə 2 zabiti Əfqanıstandakı missiyada iştirak edir.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***13 oktyabr 2017-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 97 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Dovex, Barekamavan, Şavarşavan kəndlərində, İcevan rayonunun Berkaber kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Fərəhli, Məzəm, Qızılhacılı kəndlərində, Berd rayonunun Mosesqex, Çinari, Ayqedzor kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli, Koxanəbi, Muncuqlu kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli, Zamanlı kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Yarımca, Ağdam rayonunun Nəmirli, Şuraabad, Baş Qərvənd, Cəvahirli, Abdinli, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

## Millət vəkili Elman Nəsirov:

# Mən bir daha şahidi oldum ki, Azərbaycan Ordusu istənilən döyüş tapşırığını, hücum əməliyyatını yerinə yetirməyə qadirdir

*"Əsgər oğul, ürəyini aç mənə" aksiyası çərçivəsində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Siyasi Araşdırmalar İnstitutunun direktoru, siyasi elmlər doktoru, professor, millət vəkili Elman Nəsirov ölkəmizin qərb bölgəsində, Azərbaycan-Ermənistan dövlət sərhədində torpaqlarımızın müdafiəsində dayanan Vətən əsgərlərinin qonağı olub.*



Səmimiyyətlə qarşılanan millət vəkili E.Nəsirov və digər qonaqlar hərbi qulluqçular üçün yaradılan sosial-məişət, xidmət şəraiti, eləcə də silah və hərbi texnikalarla tanış olub, əsgərlərlə görüşüb, onların qayğı və problemləri ilə maraqlanıblar.

Layihənin müəllifi, Müdafiə Nazirliyinin zabiti, Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü Abdulla Qurbani bir aydan da artıq davam edən bu aksiyanın şəxsi heyətin döyüş ruhunun, mənəvi-psixoloji hazırlığının və vətənpərvərlik hissinin daha da yüksəlməsində əhəmiyyətli rol oynadığını nəzərə çatdırıb. Qeyd olunub ki, aksiyaya qoşulan elm, mədəniyyət, ədəbiyyat xadimləri, millət vəkilləri, ictimaiyyət nümayəndələri tez-tez birlik, birləşmə və hərbi hissələrdə olur, şəxsi heyətlə fərdi və kompleks söhbətlər aparır, görüşlər keçirir və qələbəyə ruhlandırırlar.



Millət vəkili E.Nəsirov bir ay ərzində üç dəfə müxtəlif bölgələrdə olduğunu bildirib və hər dəfə bir yeniliklə qarşılaşdığını fərəh hissi ilə vurğulayıb. O qeyd edib ki, həqiqətən Azərbaycan Ordusu güclü ordudur və istənilən döyüş tapşırığını, hücum əməliyyatını yerinə yetirməyə qadirdir, şəxsi heyətin döyüş ruhu yüksəkdir. Millət vəkili bildirib ki, ordumuz ən müasir silah və sursatlarla, zirehli texnikalarla, zenit-raket qurğuları, hərbi hava qüvvələri və s. vasitələrlə təchiz olunub.

"Bütün bunlar Ali Baş Komandanın ordu quruculuğuna göstərdiyi diqqət və qayğının, Müdafiə Nazirliyi rəhbərliyinin isə qarşıya qoyulmuş vəzifələri uğurla həyata keçirməsinin nəticəsində mümkün olmuşdur. Həqiqətən də Azərbaycan Ordusu istənilən anda aprel döyüşlərini təkrarlamağa hazır və qadirdir. Biz hamımız bu gün buna bir daha əmin olduq", - deyə E.Nəsirov bildirib.

Sonra millət vəkili və onu müşayiət edən qonaqlar əsgərlərlə birlikdə nahar edib, ön səngərlərdə olub və fəxri döyüş növbəsində dayanıblar.

---

# Döyüş mövqeyində "Azərbaycan qalaları xalqımızın yenilməzlik rəmzidir" sərgisi açılıb

*Respublikamızın qərb bölgəsində döyüş mövqelərindən birində "Azərbaycan qalaları xalqımızın yenilməzlik rəmzidir" adlı sərgi açılıb.*



Sərgidə Azərbaycanın məşhur qalaları - "Əlincə qalası", "Oğlanqala", "Cavanşir qalası", "Bəlləbur qalası", "Çıraqqala", "Babək qalası", "Ramana qalası", "Mərdəkan qalası", "Gələrsən-görərsən qalası", "Koroğlu qalası" və digər abidələrinin təsvirləri yer alır. Burada, həmçinin Gəncə Qarnizonu Zabitlər Evinin təqdim etdiyi 50-dən çox qala və müdafiə tikilisinin fotosu, eləcə də döyüşçü-rəssam Bayram Əlioğlunun "Əsgəran qalası", "Biz Qarabağa qayıtdıq", "Əsgəran qalası alındı" rəngkarlıq əsərləri nümayiş olunur.

Dövlət tərəfindən qorunan V-VI əsrlərə aid Alban kilsəsində təşkil olunan sərginin açılışında layihə müəllifi polkovnik Abdulla Qurbani bildirib ki, bir neçə gün əvvəl Müdafiə Nazirliyinin rəhbərliyi bu yerlərdə olub, əsrlərin sərt sınaqlarından çıxaraq bu günümüzədək gəlib çatmış tarix və mədəniyyət abidələrinin qorunması, mühafizəsi barədə xüsusi tapşırıqlar verib. Qeyd olunub ki, Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş əzəli Azərbaycan torpaqlarında milli-mədəni dəyərlərimiz qəddarcasına məhv edilir, qarət olunur, dağıdılır, erməniləşdirilir. Lakin bundan fərqli olaraq, xalqımız hansı sivilizasiyaya, mədəniyyətə mənsubluğundan asılı olmayaraq, bəşəri dəyərləri hifz edir. "Bunu bizdən, həmçinin 1954-cü il mayın 14-də qəbul edilmiş "Silahlı münaqişələr zamanı mədəni dəyərlərin qorunması haqqında konvensiya"nın maddələri tələb edir və qarşımızda məsuliyyətli vəzifələr qoyur. Silahlı münaqişələr, həmçinin texnogen aşılanmalar nəticəsində hər hansı bir abidə təhlükə ilə üzləşərsə, dərhal aidiyyəti üzrə məlumat verilməli və həmin abidənin məhv edilməsinin qarşısı alınmalıdır. Bir çox beynəlxalq təşkilatlar Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində ölkəmizə qarşı qərəzli, ikili standartlara əsaslanan mövqe tutsa da, biz beynəlxalq qərar, qətnamə və konvensiyalara hörmətlə yanaşırıq", - deyə A.Qurbani bildirib.

Layihənin müəllifi deyib ki, döyüş mövqelərində, cəbhəyanı rayonlarda ön xətdə yerləşən abidələrin, mədəni dəyərlərin qorunmasında hər bir hərbi qulluqçu öz vətəndaşlıq borcunu dərindən dərk edir və bu istiqamətdə səylərini əsirgəmir. Tarixi abidələr əcdadlarımızın nəsillərə əmanətidir. Tariximizi öyrənmədən sevmək, sevmədən onu qorumaq mümkün deyil. Bu sərgi Azərbaycan əsgərinin tariximizə sevgisindən, məhəbbətindən irəli gələn bir tədbirdir və şəxsi heyətin milli-mənəvi, mədəni dəyərlər əsasında tərbiyəsində öz müsbət təsirini göstərəcək.

Sərginin açılışında Milli Məclisin deputatı Elman Nəsirov, "AVEY" Dövlət Tarixi-Mədəniyyət Qoruğunun əməkdaşları, Əməkdar İncəsənət Xadimi, şair-publisist Barat Vüsal və zabitlər çıxış edərək, son dərəcə aktual və əhəmiyyətli təşəbbüsə görə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıq ediblər.

Azərbaycan qalaları haqqında ətraflı məlumat alan, sərgidən xoş təəssüratlarla ayrılan hər bir döyüşçü öz səngərini və döyüş mövqeyini bundan sonra da alınmaz qalaya çevirərək döyüş növbəsində, Vətənin keşiyində ayıq-sayıq duracağına, əsgəri borcunu şərəflə davam etdirəcəyinə söz verib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Faşizm üzərində qələbədə mühüm amillərdən biri xalqların birliyidir

*Oktyabrın 12-də Bakıda Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı, "Qələbənin Varisləri" Beynəlxalq İttifaqının Azərbaycan nümayəndəliyi, Gənclər və İdman Nazirliyinin birgə təşkil etdikləri "Xalqların birliyi faşizm üzərində qələbədə və sülhün qorunmasında əsas amil kimi" mövzusunda beynəlxalq konfrans başlayıb.*



AZƏRTAC xəbər verir ki, dövlət və hökumət rəsmilərinin, 20-dən çox ölkədən yüksək səviyyəli qonaqların, Milli Məclisin deputatlarının, ictimai təşkilatların, veteranların, ziyalıların, gənclərin iştirak etdikləri tədbirdə əvvəlcə İkinci Dünya müharibəsində, Əfqanıstan və Qarabağ müharibələrində həlak olmuş insanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Beynəlxalq konfransda Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov çıxış edərək İkinci Dünya müharibəsində faşizm üzərində qələbənin 75-ci ildönümünə hazırlıq çərçivəsində keçirilən konfransın əhəmiyyətindən danışıb. Qeyd edib ki, bu konfransın Azərbaycanda keçirilməsi heç də təsadüfi deyil. Azərbaycan İkinci Dünya müharibəsində faşizm üzərində qələbənin əldə edilməsinə mühüm töhfələr verib.

Azərbaycandan 690 mindən çox insan müharibədə iştirak edib, onlardan 300 mindən çoxu həlak olub. On minlərlə soydaşımız yaralanıb, minlərlə insan itkin düşüb. 123 nəfər ən yüksək ada - Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. Azərbaycanın adı oğul və qızlarının şücaəti, on minlərlə həmvətənimizin orden və medallara layiq görülməsi ilə də tarixə yazılıb. Bu, Azərbaycan xalqının qəhrəmanlığının bariz nümunəsidir. Xalqımız həmin müharibədə beş milli diviziyası ilə yanaşı, bütün potensialı ilə iştirak edib. Bakı neftinin böyük qələbənin qazanılmasındakı rolu tarixi fakt kimi hamıya məlumdur. Bundan başqa, bütün Azərbaycan "hər şey cəbhə üçün, hər şey qələbə üçün" devizi ilə işləyib və əsl fədakarlıq nümunələri göstərib.

Faşizm üzərində qələbədə mühüm amillərdən biri xalqların birliyi olub. Bu amala sadiq qalan Azərbaycan xalqı və dövləti bütün dünyada sülhün qorunmasında öz töhfəsini verir və gələcəkdə də buna hazırdır. Ancaq bu gün erməni faşizmi ilə qarşılaşmış, ərazisinin 20 faizi Ermənistanın işğalı altında olan Azərbaycana qarşı münasibətdə eyni prinsipə həmişə əməl edilmir. Konfransda belə bir əminlik ifadə olunub ki, mövzusu faşizmin bütün forma və təzahürlərinə qarşı mübarizəyə həsr edilmiş bugünkü beynəlxalq konfrans regionda və dünyada sülhün bərqərar olunmasına öz töhfəsini verəcək.

Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdir müavini Ərəstun Mehdiyev faşizm üzərində böyük qələbədə danılmaz payı olan Azərbaycanın belə tədbirlərə ev sahibliyi etməsini yüksək qiymətləndirərək deyib: "Bu beynəlxalq konfrans dövlət və ictimai xadimləri, veteran və gənclər təşkilatlarının nümayəndələrini bir məkanda toplayıb. Müzakirəyə çıxarılan mövzu çox aktual və mühümdür. Xüsusən ona görə ki, son illərdə saxtakarlar İkinci Dünya müharibəsinin tarixini yenidən yazmağa, Böyük Vətən müharibəsinin xarakterinə yenidən nəzər salmağa, faşizmin darmadağın edilməsində xalqlarımızın həlledici rolunu kiçiltməyə çalışırlar. Əminəm ki, bugünkü tədbir konstruktiv ruhda keçəcək, tarixi həqiqəti təhrif etmək cəhdlərinə qarşı mübarizəyə dair praktiki təkliflər hazırlamağa imkan verəcək, müasir mərhələdə dünyada və regionumuzda mürəkkəb qlobal prosesləri anlamağa şərait yaradacaq. Əlamətdar haldır ki, bu konfrans Bakıda - müharibə illərində cəbhəni yanacaqla təchiz edən şəhərdə keçirilir. Marşal Georgi Jukov xatirələrindən birində müharibədə Bakı neftçilərinin rolunu yüksək qiymətləndirib.

Azərbaycanın cəbhəyə təkcə neft məhsulları göndərmədiyini, yeddi yüz mindən çox həmvətənimizin Böyük Vətən müharibəsi meydanlarında mərdliklə və fədakarlıqla döyüşdüyünü xatırladan Prezident Administrasiyasının rəsmisi deyib ki, onların təxminən yarısı geri qayıtmayıb. O vaxt Azərbaycan əhalisinin ümumi sayı cəmi üç milyon dörd yüz min nəfər idi. Bu o deməkdir ki, respublika sakinlərinin orta hesabla təxminən hər beş nəfərindən biri ön cəbhədə döyüşürdü.

Vətənin müdafiəçilərinə, müharibə iştirakçılarına və onların ailə üzvlərinə Azərbaycanda dərin hörmət bəslənilir. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə ölkəmizdə Qələbə bayramı hər il rəsmi səviyyədə qeyd edilir. Ulu öndər Heydər Əliyev müharibə veteranlarını xalqımızın qızıl fondu hesab edirdi. Sevindirici haldır ki, veteranlara qayğı bu gün də Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Respublikada müharibə iştirakçılarına sosial dəstək tədbirləri həyata keçirilir. Onlara Prezident təqaüdü verilir, veteranlar dövlət hesabına mənzil, avtomobil və bir sıra başqa güzəştlərlə təmin olunurlar. Prezident İlham Əliyevin Sərəncamı ilə hər il Qələbə günü ərəfəsində müharibə iştirakçılarına, həlak olmuş və ya sonradan vəfat etmiş döyüşçülərin dul qadınlarına, cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilir.

Ə.Mehdiyev qeyd edib ki, 2015-ci ildə Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı ən yüksək standartlara cavab verən yeni bina ilə təmin olunub. Bu təşkilatın maddi-texniki bazasını gücləndirmək məqsədilə Prezidentin ehtiyat fondundan vəsait ayrılıb. Bütün bunlar ömrünün ən yaxşı illərini faşizmə qarşı mübarizəyə həsr etmiş insanlara dövlətimizin qayğısının əyani təsdiqidir.

Prezident Administrasiyasının rəsmisi İkinci Dünya müharibəsi haqqında həqiqətlərin, ümumən tarixin ermənilər tərəfindən saxtalaşdırılması cəhdlərindən, nasist ideologiyasının Ermənistanda dövlət səviyyəsində yayılmasından da danışıb.

Sonra MDB dövlətləri Mərkəzi İcraiyyə Komitəsi sədrinin müavini Konozbeq Jusupbekov, Rusiya İnformasiya-Mədəniyyət Mərkəzinin rəhbəri Valentin Denisov, Milli Məclisin deputatı Rasim Musabəyov, "Qələbənin Varisləri" vətəndaş və təşkilatların Beynəlxalq İttifaqının müxtəlif ölkələrdəki nümayəndəliklərinin rəhbərləri və digərləri çıxış edərək, keçirilən tədbirin əhəmiyyətindən, İkinci Dünya müharibəsində faşizmə qarşı mübarizədə və hazırda sülhün qorunmasında xalqlar birliyinin tarixi rolundan danışıblar.

Daha sonra "Qələbənin Varisləri" Beynəlxalq İttifaqının vitse-prezidenti, Moskva vilayəti müharibə və hərbi xidmət veteranları komitəsinin sədr müavini Alfred Qaponenko, Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun direktor müavini Cəbi Bəhramov, İkinci Dünya müharibəsi veteranı Aleksandr Qritçenko, Müstəqil Dövlətlərin Veteran İctimai Təşkilatları Beynəlxalq İttifaqının sədr müavini Vladimir Tkaçenko, Rusiya Qəhrəmanlar Assosiasiyasının üzvü Vladimir Alimov, "Qələbənin Varisləri" Beynəlxalq İttifaqının Voronej şəhər nümayəndəliyinin rəhbəri Valentina Şumlyanskaya çıxışlarında Azərbaycanın faşizm üzərində Qələbənin əldə edilməsində mühüm rolundan danışıblar.

# Raket və artilleriya birləşmələri döyüş atışlı təlimlər keçirib



*Silahlı Qüvvələrin 2017-ci il üçün hazırlıq planına uyğun olaraq, raket və artilleriya birləşmələrinin döyüş vərdişlərinin təkmilləşdirilməsi məqsədilə təlimlər keçirilib.*



Döyüş şəraitinə uyğun vəziyyətdə keçirilən təlimlərdə artilleriya bölmələrinin marşı icra etməsi, cəmləşmə rayonlarına çıxarılması, qərarların qəbul olunması, gizliliyə riayət etməklə atəş və start mövqelərinin tutulması, döyüşün gedişində yerdəyişmə və digər tapşırıqlar yerinə yetirilib.

Təlimlərdə praktiki döyüş atışlarının dəqiqliyini və intensivliyini təmin etmək məqsədilə müasir avtomatlaşdırılmış idarəetmə sistemlərindən və atəşin korrektə edilməsi üçün pilotsuz uçuş aparatlarından istifadə edilib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Əməyin mühafizəsi diqqət mərkəzindədir

*Oktyabrın 6-da bütün dünyada qeyd olunan Layiqli Əmək Uğrunda Ümumdünya Fəaliyyət Günü ərəfəsində Hərbi Dəniz Qüvvələrində Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası, Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi və Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin birgə təşkilatçılığı ilə "Layiqli əmək uğrunda fəaliyyət günü" adlı seminar keçirilib.*





Seminarı giriş sözü ilə açıq elan edən Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Abiyat Ağadadaşova iş yerlərində təhlükəsiz əmək şəraitinin yaradılması, əməyin mühafizəsi, səmərəli-sosial dialoqun təşkili və sosial ədalətin təmin olunması istiqamətində belə seminarların əhəmiyyətini vurğulayıb. Həmkarlar ittifaqlarının əsas məqsədinin öz üzvlərinin sosial müdafiəsini təşkil etmək və iş yerlərində əmək şəraitinin yaxşılaşdırılması olduğunu qeyd edib.

Sonra seminarda mühazirələr dinlənilib. İlk olaraq Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədr müavini Əbülfəz Mehdiyev çıxış edib. O, istehsalat və tikinti sahəsində əməyin təşkili və təhlükəsizlik qaydalarına əməl olunmasının vacibliyinə toxunub:

- İstehsalat sahəsində işə başlamazdan əvvəl sanitar, yanğın, ekoloji təhlükəsizliyə, yüksək təhlükə mənbəyi olan mexanizm və avadanlıqların istifadədən əvvəl sınaqdan və texniki təhlükəsizlik ekspertizasından keçirilməsinə nəzarət gücləndirilib. Bununla yanaşı, işə götürənlər tərəfindən işçilərin əməyin mühafizəsinin norma və qaydalarına əməl edilməsinə də nəzarət artırılıb. Həmçinin ölkə səviyyəsində layiqli əmək istiqamətində monitorinqin aparılması və qiymətləndirilməsi Beynəlxalq Əmək Təşkilatı (BƏT) üçün prioritet məsələ olaraq qalmaqdadır.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının əməyin mühafizəsi şöbəsinin mütəxəssisi Nadir Muradov isə çıxış edərək, dünya səviyyəsində istehsalat həcminin və buna uyğun olaraq, işçilərin əməyinin qiymətləndirilməsi məsələlərinə toxunub. Bu istiqamətdə Azərbaycan hökuməti ilə Beynəlxalq Əmək Təşkilatı (BƏT) arasında əməkdaşlıq çərçivəsində 2016-2020-ci illər üçün layiqli əmək üzrə proqramın hazırlandığı barədə məlumat verib.

Sonra Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının hüquq şöbəsinin müfəttişi Ruslan Bağırov Azərbaycan Respublikasının Beynəlxalq Əmək Təşkilatı (BƏT) ilə səmərəli əməkdaşlığının nəticəsi olaraq 2002-ci ildə ölkəmizdə BƏT-in yerli nümayəndəliyinin açıldığını qeyd edərək deyib:

- Ötən müddət ərzində Azərbaycan BƏT-in 58-ci konvensiyasına tərəfdaş olaraq milli əmək qanunvericiliyinin beynəlxalq standartlara uyğunlaşdırılması sahəsində xeyli uğurlar qazanıb.

Sonda dinləyiciləri maraqlandıran suallar ətraflı cavablandırılıb.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

# Hər kəs Vətənə borcunu ödəməkdən qürurludur

*Bu fikri bir qrup fiziki imkanları məhdud şəxslərin xeyirxah əməlləri də təsdiqləyir. Qəlbləri Vətən eşqi ilə döyünən bu insanlara daim cəmiyyətimizdə böyük hörmət göstərilir.*



Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə məhdud fiziki imkanlı şəxslərin toxuduqları isti geyimlər Əlahiddə Ümumqoşun Ordunun çətin dağlıq şəraitdə xidmət edən əsgərlərinə hədiyyə edilib.

Bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Cavid Səfərov çıxış edərək bildirib ki, məhdud fiziki imkanlı 19 şəxs tərəfindən Vətən qarşısında müqəddəs borclarını yerinə yetirən əsgərlər üçün 1107 cüt yun corab və 214 ədəd şarf toxunub. Nazir qeyd edib ki, bu tədbir həmin kateqoriyadan olan şəxslərin məşğulluğunu təmin etməklə onların maddi təminatlarının yaxşılaşmasına da xidmət edir. İlin sonunadək yun corab və şarfların toxunması işi də davam etdiriləcək.

Çıxışlar zamanı Əlahiddə Ümumqoşun Ordunun zabiti polkovnik Mirqiyas Rüstəmov qeyd edib ki, Naxçıvanda da ordunun döyüş qabiliyyəti hər keçən gün daha da artırılır. "Şəxsi heyət torpaqlarımızın müdafiəsində ayıq-sayıq dayanır və onlara daim yüksək qayğı göstərilir. Bu gün əsgərlərə isti qış geyimlərinin təqdim edilməsi də növbəti qayğının ifadəsidir".

"N" hərbi hissəsinin əsgəri Əli Rəcəbli yoldaşları adından göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirib.

Tədbirdən sonra zabit və əsgərlərlə həmsöhbət oldum. Zabitlərdən Cavanşir Hüseynov, Kənan Alıyev, İlqar Qəhrəmanov, Nəcəf Həmidov və digərləri bildirdilər ki, Vətənin peşəkar müdafiəçiləri üçün toxunan bu isti geyimlər Azərbaycan vətəndaşının öz əsgərinə dəstəyindən, xalq-ordu birliyindən xəbər verir. Məhdud fiziki imkanlı şəxslərin bu təşəbbüsü hər birimizi daha da qürurlandırır.

Qonağı olduğum hərbi hissə qarovul xidmətinin təşkili və aparılmasında, strateji obyektlərin mühafizəsi və müdafiəsində mühüm təcrübəyə malikdir. Burada müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularından baş çavuş Tural Cəfərov, əsgər Təbriz Abdullayev və digərləri ilə həmsöhbət olan zaman bildirdilər ki, yaradılan hərtərəfli nümunəvi xidmət şəraiti verilən tapşırıqların vaxtında və dəqiq yerinə yetirilməsinə müsbət təsir göstərir.

Nümunəvi əsgərlərdən Anar İsmayıllı, Şövqi Hüseynov, Ayxan Əliyev, Əli Əlizadə, Fərid Məmmədov, Kirman Muradov, Ədail Kərimov və adını çəkmədiyim digər Vətən müdafiəçiləri nümunəvi xidmətləri ilə komandir və rəislərinin rəğbətini qazanıblar. Çünki onların əsas arzu və amalı Vətənə şərəflə xidmət edərək valideynlərinə və komandirlərinə başucalığı gətirmək, düşməni məhv etməyə hazır olmaqdır.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə sağlamlıq imkanları məhdud ifaçılardan ibarət "İnam" musiqi qrupu da tarixi və əlamətdar günlərdə hərbi hissələrdə olur, zabit və əsgərlər qarşısında konsert proqramı ilə çıxış edir.

**Leytenant**
**Nəriman NƏCƏFOV,**
**"N" hərbi hissəsi**

# Hərtərəfli dinamik inkişaf ordu quruculuğuna da öz təsirini göstərib

Oktyabrın 9-da Nazirlər Kabinetinin 2017-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında ölkəmizin son doqquz ayda iqtisadi sahədə əldə etdiyi uğurları qeyd edən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev bütün istiqamətlərdə dinamik inkişaf tempinin davam edəcəyindən əminliklə danışıb və hər kəsdə maraq doğuran iqtisadi inkişafımızın göstəricisi olan rəqəmləri sadalayıb. Bu çıxış, təbii ki, hər birimizdə ruh yüksəkliyi yaradıb. Çünki ölkənin hərbi qüdrətinin artmasının, iqtisadi inkişafla birbaşa bağlı olması heç kəsə sirr deyil.

Son illər Azərbaycan Ordusunun şəxsi heyəti deyilənlərə, sözün həqiqi mənasında, şahiddir və bu uğurlu dəyişiklikləri öz üzərində müsbət mənada hiss edir. İqtisadi inkişafımız hər sahədə olduğu kimi, ordu quruculuğuna da öz müsbət təsirini göstərir, uğurlu addımların atılmasına, həyata keçirilən islahatların müvəffəqiyyətli olmasına zəmin yaradır.

Məlumdur ki, ölkəmiz iqtisadi cəhətdən nə qədər güclənərsə, onun hərbi qüdrəti də bir o qədər artar, ordumuzun döyüş hazırlığı daim yüksələr, şəxsi heyətin sosial-məişət şəraiti daha da yaxşılaşar.

Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Müdafiə Nazirliyi tərəfindən son bir neçə ilə ərzində həyata keçirilən islahatlar, görülən işlər də deyilənlərə əyani sübutdur. Alınan ən müasir hərbi təyinatlı avadanlıqlar, yeni silah və döyüş texnikası, istifadəyə verilən hərbi şəhərciklər, təlim mərkəzləri, keçirilən irimiqyaslı döyüş atışlı təlimlər, Azərbaycan Ordusunun hərbi qulluqçularının müxtəlif beynəlxalq tədbirlərdə uğurla, inamla iştirakı da məhz Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə edilən iqtisadi inkişafımızın göstəricisidir.

Ali Baş Komandanın tapşırığına əsasən, Belarus Respublikasında səfərdə olan Müdafiə naziri general-polkovnik Zakir Həsənovun bu ölkənin hərbi-siyasi və digər dövlət strukturlarının rəhbərləri ilə keçirdiyi görüşlər zamanı əldə olunan razılaşmalar, eləcə də hərbi sənaye kompleksinə daxil olan müəssisələri ziyarət etməsi yaxın vaxtlarda ordumuzun silah arsenalının zənginləşdirilməsi və daha da güclənməsi istiqamətində görülən zəruri tədbirlərdəndir.

Şübhəsiz ki, görülən bu uğurlu işlər, Ali Baş Komandanın da dəfələrlə qeyd etdiyi kimi, Azərbaycan Ordusunun regionun ən güclü ordusuna çevrilməsinə imkan yaratmışdır. Bu gün artıq hər kəs inamla deyə bilər ki, Silahlı Qüvvələrimiz dövlət başçısının hər bir əmrini yerinə yetirməyə, ölkəmizin ərazi bütövlüyünü təmin etməyə və düşmənə layiqli cavab verməyə qadir olan qüdrətli bir ordudur.

**İsa İSMAYILOV,**
**hərbi jurnalist**

# Müdafiə Nazirliyi "Xidmət etdiyimiz bölgəni yaxından tanıyaq" layihəsinə start verdi

*2016-cı ilin aprel zəfərindən sonra Azərbaycan Ordusuna inam daha da artıb. Xalq öz ordusuna güvənir və onun istənilən əmr və tapşırığını qısa bir zamanda layiqincə yerinə yetirib, ölkəmizin ərazi bütövlüyünü təmin edərək hərb tariximizə daha parlaq səhifələr yazacağına əmindir. Aprel döyüşləri dövlətimizin və ordumuzun gücünü, xalqımızın birliyini, həmrəyliyini və vətənpərvərliyini nümayiş etdirmişdir. Düşmən işğal etdiyi ərazilərdən xoşluqla geri çəkilməsə, aprel döyüşləri təkrarlanacaq, düşmənə daha tutarlı zərbələr vurulacaqdır.*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında ölkə başçısının çıxışı bütün xalqımız kimi, Silahlı Qüvvələrimizin şəxsi heyətinin də böyük ruh yüksəkliyinə səbəb olub. Həmin iclasda Ali Baş Komandan bir daha qətiyyətlə bəyan edib: "Dağlıq Qarabağ bizim tarixi, əzəli torpağımızdır, biz bu torpaqlara qayıtmalıyıq və qayıdacağıq... Biz torpaqlarımızda ikinci erməni dövlətinin yaradılmasına heç vaxt imkan verməyəcəyik və ərazi bütövlüyümüzün bərpası bizim əsas vəzifəmizdir."

Son illərdə ordu ilə xalqın birliyi daha da möhkəmlənmişdir. Bir ənənə halını almış "Açıq qapı" günlərində ictimaiyyət nümayəndələri ordu quruculuğundakı islahatlar, yeniliklərlə tanış olur, hərbçilərin sosial-məişət tərzi və əsgəri xidmət üçün yaradılan müasir şəraitlə, eləcə də silah-sursat, texnika və digər vasitələrlə tanışlıq imkanı əldə edirlər.

Silahlı Qüvvələrdə icrasına yenicə başlanmış "Xidmət etdiyimiz bölgəni yaxından tanıyaq" layihəsi ordu ilə xalqın birliyinin daha da möhkəmlənməsinə, şəxsi heyətin müdafiəsində dayandığı bölgəni yaxından tanımasına, yerli əhalinin adət-ənənələrinə, milli-mənəvi dəyərlərinə yaxından bələd olmasına şərait yaradacaq, hərbi qulluqçuların dünya görüşünün artmasında, Vətənimizin hər bir guşəsinə sevgi, məhəbbət hisslərinin aşılanmasında müsbət təsirini göstərəcəkdir.

"Xidmət etdiyimiz bölgəni yaxından tanıyaq" layihəsi çərçivəsində ilk tədbir respublikamızın elm, mədəniyyət, ədəbiyyat mərkəzlərindən biri olan, dünya hərb tarixinə görkəmli şəxsiyyətlər və sərkərdələr bəxş etmiş Qazax rayonunda reallaşıb.

Bir qrup hərbi qulluqçu ötən il möhtərəm Prezidentimiz İlham Əliyevin iştirakı ilə təntənəli açılışı olmuş, müasir və zəngin ekspozisiyaya malik Qazax rayon tarix-diyarşünaslıq muzeyini ziyarət ediblər.

Muzey kollektivi tərəfindən hörmətlə qarşılanan Vətən müdafiəçiləri əvvəlcə xalqımızın Ümummilli Lideri, hələ ötən əsrin 70-ci illərində Azərbaycanın bütün bölgələrində tarix-diyarşünaslıq muzeylərinin yaradılmasının bilavasitə təşəbbüskarı ulu öndər Heydər Əliyevə həsr edilən guşə ilə tanış olub, muzey direktoru Gülnaz Alişanovanın bələdçiliyi ilə bölgənin tarixinə "səyahət" ediblər.

Qeyd olunub ki, gözəl və rəngarəng təbiəti ilə seçilən Qazax rayonu həm də arxeoloji və memarlıq abidələri ilə zəngin bir bölgədir. Burada yüzdən çox abidə qeydə alınmışdır ki, onlardan "Damcılı", "Baba Dərviş" və "Qırmızı körpü" abidələri dünya əhəmiyyətli abidələr kimi UNESKO-nun mədəni irs siyahısına daxil edilmişdir. Damcılı mağarası bu bölgədə yaşayışın paleolit dövrünə aid olduğunu göstərir. Ötən il Azərbaycan arxeoloqları yaponiyalı həmkarları ilə burada arxeoloji tədqiqatlar aparmış və yüzlərlə yeni eksponat aşkarlanmışdır. "AVEY" Dövlət Tarixi-Mədəniyyət Qoruğundakı mağaralar, ilk insan düşərgələri, qalalar və digər abidələr barədə də hərbçilərə ətraflı məlumatlar verilib. Qazaxdan pərvazlanan görkəmli hərbi xadimlər: ilk hərbi təyyarəçi Fərrux Qayıbov, "rus artilleriyasının Allahı" general Əlağa Şıxlinski, hərbi topoqrafçı general İbrahim Ağa Vəkilov, Sovet İttifaqı Qəhrəmanı Müseyib Allahverdiyev, İtaliyanın Milli Qəhrəmanı Tahir İsayev, Fransa Milli Müqavimət hərəkatının partizanlarından olan Xanos Əhmədov, Azərbaycanın Mili Qəhrəmanları Alı Mustafayev, Aqil Musayev, Şamoy Çobanov, Mərifət Nəsibov, Firudin Şamoyev və "Azərbaycan Bayrağı" ordenli şəhid Qaratel Hacımahmudova haqqında söhbətləri əsgər və zabitlər maraqla dinləyiblər. Qazaxın folkloru, etnoqrafiyası, şair və yazıçıları, pəhləvanları, məşhur dilbaz atları barədə söhbət açılıb.

Muzeyin rəy və təkliflər kitabına "Azərbaycanımızın qədim və qəhrəmanlıqlarla zəngin olan belə bir bölgəsində xidmət etməkdən böyük qürur duyuruq və söz veririk ki, bundan sonra da bu bölgənin müdafiəsində ayıq-sayıq dayanacaq və Vətənimizin elm, mədəniyyət, ədəbiyyat mərkəzlərindən biri olan Qazaxı göz bəbəyi kimi qoruyacağıq" sözlərini yazan hərbçilər muzeydən xoş təəssüratlarla ayrılıblar.

Hərbi qulluqçular sonra xidmət etdikləri bölgəni yaxından tanımaq istəyi ilə Molla Vəli Vidadinin ev muzeyində, Rəsm qalereyasında, Ədəbiyyat muzeyində, Şəxsiyyətlər parkında və şəhərin digər görməli yerlərində olublar.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

## Nümunəvi xidmət

# "Vətən hər nəğməmizin nəqaratıdı"



Cəmiyyətimizdə ənənəvi bir keçmişə sahib olan əsgərlik müqəddəs bir amal olaraq qiymətləndirilir. Əsgərlik Vətən borcu, Azərbaycan gəncinin müqəddəs bir vəzifəsidir. Ərazi bütövlüyümüz məhz ondan asılıdır. Azərbaycan əsgəri torpaqlarımızın gələcəyinin də qarantıdı. Onların özlərinə məxsus düşüncələri, xəyalları, bu xəyalları gerçəkləşdirmək üçün fikirləri var. Bu gün Azərbaycan əsgərinin əsas xəyalı, amalı torpaqlarımızın azadlığıdı. Vətənə olan sevgisini, məhəbbətini, bağlılığını həyatı bahasına ödəməyə hazır olan Azəbaycan əsgəri Ağdamda, Şuşada, Xankəndidə, Kəlbəcərdə... bayrağımızı dalğalandırmaq intizarındadı.

"N" hərbi hissəsində pulemyot manqasının heyət nəfəri əsgər Firudin Hüsüyev də müqəddəs torpaqlarımıza qədəm basacağı günün xəyalını qurur, gözləri qarşısında canlandırır. Gözlərindən oxunur ki, qələbə gününün həyəcanını elə bu gündən yaşayır. Sözlərindən də aydın olur ki, Vətənin Azərbaycan əsgərinə əmanət olduğunun fərqindədir: "Vətənin keşiyində dayanan əsgər kimi deyə bilərəm ki, əhvali-ruhiyyəmiz yüksək səviyyədədir. İllərlə yaşadığım evimdən, ailəmdən, yaxınlarımdan uzaqlaşıb Vətənin hər hansı bölgəsində xidmət etmək bəzən çətin gəlir insana. Bu, təbii haldır. Vətənə xidmət asan olsa, torpağın qədri bilinməz. Çətin, məsuliyyətli və şərəfli işin daşıyıcılarından biri olduğuma, düşmənlə üz-üzə dayandığıma görə qürurluyam. Bu torpaq uğrunda saysız-hesabsız şəhidləri, canını-qanını fəda edən igidləri, sağlamlığını itirən əlilləri, ömrünün yarısını, bəlkə də yarısından çoxunu hərbi xidmətdə keçirən, gəncliyini bu Vətənə həsr edən zabitləri, gizirləri yada saldıqca qürur duymaya, fəxr etməyə bilmirəm. Qəribədir ki, xidmətim zamanı Vətənin, qoruduğum, keşiyində dayandığım torpağın bir parçası olduğumu daha çox hiss edirəm".

Erkən çağlarından hərbi formaya xüsusi marağının olduğunu deyən əsgər F.Hüsüyev qeyd etdi ki, hərbi xidmətdə Hacıəli Hacıyev kimi dostları ilə birgə keçirdiyi günlər, hərbi xidmətlə bağlı hisslər həyatında xoş izlər buraxıb: "Etiraf edim ki, düşmənin hava hədəflərini, yüngül zirehli texnikalarını məhv etmək üçün nəzərdə tutulmuş texnikanın öyrənilməsindən tutmuş, səngər boyu davam edən döyüşlərə, bu döyüşlərdə qazandığım dostlara kimi hər şey ürəyimcədi. Orduda bizə yaradılan şərait könül xoşluğu verir. Belə bir şəraitdə bizim öhdəmizə hərbi texnikanı öyrənmək, öyrəndiklərimizi döyüş meydanında tətbiq etmək və nəticədə qələbə qazanmaq düşür. Aprel zəfərini təkrarlamağı xalqımız səbirsizliklə gözləyir".

Əsgər Firudin Hüsüyev bildirdi ki, 14 aylıq hərbi xidmət müddəti o qədər dolğun, o qədər mənalı, o qədər maraqlı keçib ki, danışmağa bir ömürlük sözü var: Vətən kəlməsi ürəyimizin həzin nəğməsinin nəqaratıdı. Buna görə də həmişə doğma yurdumuzu gözümüzün nuru bilirik. Yaxşı dərk edirik ki, bu səngərlərdən arxada xalqımız bizə güvənərək yaşayır, yaradır. Başa düşürük ki, müharibə torpaqlarımız işğaldan azad edilındən sonra başa çatacaq. Ona görə də düşmənin hər bir hərəkətini müşahidə edir, onu daim nəzarətdə saxlayırıq. Artıq səbrimiz tükənir, torpaqlarımızı müşahidə etməyə son qoymağın zamanı yetişdiyini anlayırıq. Hicran sona çatacaq, vüsala qovuşacağıq!

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

## Müsabiqə

# "Gücümüz birlikdədir"

Azərbaycan Respublikası Müdafiə nazirinin şəxsi heyət üzrə müavini - Şəxsi Heyət Baş İdarəsinin rəisi general-leytenant Kərim Vəliyevin müvafiq əmrinə əsasən, mənəvi-psixoloji hazırlıq işinin əsas tərkib hissəsi sayılan mədəni-asudə işin təşkili və vəziyyətin öyrənilməsi, şəxsi heyətin mədəni-maarif tərbiyəsi tədbirlərinin təşkilinin, nümunəvi xidmətin və qabaqcıl təcrübənin təbliği üçün Silahlı Qüvvələr və qoşun növləri, Əlahiddə Ümumqoşun Ordu, birlik və birləşmələrdə şəxsi heyət arasında "Gücümüz birlikdədir!" mövzusunda rəsm müsabiqəsi başlanıb.

Bu il dekabrın 31-dək davam edəcək müsabiqədə qalib yerləri tutanlar mükafatlandırılacaq.



**1-ci yer - 150 azn;**
**2-ci yer - 100 azn;**
**3-cü yer - 50 azn.**

Qaliblərə diplomlar da təqdim olunacaq.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər İbrahimov Taleh Nəsir oğluna 2017-ci ilin mayında verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 401
Nüsxə 4600